

*Aygün Hüseyn*

## Həsrət yolu

Ağlar gözlərimin yaşından keçir,
Qəmli ürəyimin başından keçir.
Səbrimin son əlhəd daşından keçir,
Yaman uzun imiş həsrətin yolu.

İntizar köksümə sancılan oxdu,
Ağrısı əzabı həmişə çoxdu.
Könül şəhərimin gələni yoxdu,
Yaman uzun imiş həsrətin yolu.

Üşüyür dilində sözü Aygünün,
Qalıb qor altında közü Aygünün.
Yollara boylanır gözü Aygünün,
Yaman uzun imiş həsrətin yolu.

## İlahi sevgi

Ümid ətirlidir naz qoxuludur,
Pərdə-pərdə dinən saz qoxuludur,
Bahar təravətli yaz qoxuludur,
Ruhumu yaşadır ilahi sevgi.

Oxşayır qəlbimi xoş nəğmə kimi,
Eşqim bir dəryadır, ömrüm bir gəmi.
Silib gözlərimdən kədəri, qəmi,
Ruhumu yaşadır ilahi sevgi.

Kainat yaranıb onun xətrinə,
Hopubdu şeirimin hər bir sətrinə.
Aygünü bələyib çiçək ətrinə,
Ruhumu yaşadır ilahi sevgi.

## Söz aləmində

Açıbdır üzünü üzümə yollar,
Coşur ürəyimdə nazlı duyğular.
Hər bir ləçəyimdə iman ətri var,
Bir təzə çiçəyəm söz aləmində.

Tanrıdan savayı pənahım yoxdu,
Dünyanın malından gözlərim toxdu.
Duyğulu qəlbimin atəşi çoxdu,
Ocaq aləmində, köz aləmində.

Heyrandır təbimə hətta fələklər,
Ruhumu bəzəyir arzu, diləklər.
Könlümdən su içir huri-mələklər,
Aygün bir dünyadır öz aləmində.

## Ana ürəyi

Ona ümid verin, arzu bəsləyin,
Nəvaziş göstərib, daim səsləyin.
Ən uca yeridir müqəddəsliyin,
Haqqın dərgahıdır ana ürəyi.

Duası ömrünə yayılacaqdır,
Arzusu, sevgisi qucaq-qucaqdır.
Həniri sönməyən ulu ocaqdır,
Haqqın dərgahıdır ana ürəyi.

Həyat bir xəzinə, osa bir inci,
Bəşər kitabında odur birinci,
Aygün, fərəhindir onun sevinci,
Haqqın dərgahıdır ana ürəyi.

## Susam

Tamı dadı qaçıb doğma sözün de.
Harayım qıy vurur göyün üzündə,
Bir ümid üşüyür Cıdır düzündə,
Həsrətlə yolumu gözləyir Susam!

Sovrulub göylərə ocağım, külüm,
Gözüyaşlı qalıb Xarıbülbülüm.
Düşmən tapdağında solubdur gülüm,
Həsrətlə yolumu gözləyir Susam!

Aygün, qor altında sönməyib közüm,
Söykənib ruhuma sonuncu dözüm
Qələbə yoluna boylanır gözüm,
Həsrətlə yolumu gözləyir Susam!